# Sərbəst güləş üzrə rayon birinciliyi

Qəbələ Rayon Gənclər və İdman İdarəsi yeniyetmə və gənclər arasında 28 May—Respublika Gününə həsr edilmiş sərbəst güləş üzrə rayon birinciliyi yarışı keçirmişdir. Yarış 23 may 2013-cü il tarixdə Qəbələ Olimpiya İdman Kompleksində baş tutmuşdur.

Yarışın keçirilməsində məqsəd 28 May—Respublika Gününün yaranma tarixi barədə, müsəlman dünyasında ilk olaraq Azərbaycanda demokratik respublikanın qurulması və Azərbaycanın ən parlaq və unudulmaz tarixi günlərindən biri olduğunu gənc nəslin diqqətinə çatdırmaq, eyni zamanda yeniyetmə və gənc idmançılarda yarış təcrübəsini və ustalığı artırmaq, sərbəst güləş növünü yeniyetmələr arasında təbliğ etmək və kütləviliyini yüksəltməkdən ibarətdir.

Birinciliyin açılış mərasimində gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək 28 May—Respublika Gününün yaranma tarixi barədə məlumat vermiş, respublikada olduğu kimi Qəbələ rayonunda da idmanın maddi-texniki bazasının möhkəmləndirilməsindən, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən idmançılara göstərilən qayğı və diqqətdən danışaraq yarış iştirakçılarına uğurlar arzuladı. Daha sonra yarışın baş hakimi Kamran Cabbarov birinciliyin keçirilməsinin qaydaları haqqında idmançıları məlumatlandırdı.

Açılış mərasimindən sona meydan birincilik uğrunda mübarizəyə başlayan güləşçilərin ixtiyarına verildi. Yarışda 14 çəki dərəcəsi üzrə 60-a yaxın yeniyetmə və gənc güclərini sınamışlar. Yarışın keçirilməsi Azərbaycan Güləş Federasiyasının qaydaları əsasında rayon gənclər və idman idarəsi tərəfindən təsdiq edilmiş hakimlər heyətinə həvalə edilmişdir.





Sərbəst güləş üzrə rayon birinciliyinin yekununda 23 kq çəkidə Emin Məmmədov, 26 kq çəki dərəcəsində Sunar Həsənov, 29 kq-da Məhəmmədiyyə Osmanov, 32 kq çəkidə Ağafət Qəribov, 35 kq-da Elçin Əzimzadə, 38 kq-da Şamil Mustafayev, 42 kq-da Sərvər Faxlulov, 45 kq-da Rəvan Xəlilov, 48 kq-da Arzuman Abulov, 52 kq-da Nurxan Bəhrambəyli, 56 kq-da Elnur Abdullayev, 60 kq-da Bəhman Abdullayev, 65 kq-da Natiq Sadəddinli və 70 kq çəki dərəcəsində Süleyman Mərdəli I yerə layiq görülmüşlər. Hər çəki üzrə qalib gəlmiş (I, II, III yerləri tutmuş) güləşçilərə gənclər və idman idarəsinin təsis etdiyi diplom və medallar təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi

Su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi, insanların bu sahədə daha da bilikli, təlimatlı olması, baş vermiş təhlükəli hadisələr zamanı insanların axtarışının və xilas edilməsinin daha səmərəli şəkildə təşkili istiqamətində məqsədyönlü işlərin aparılması məqsədilə Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzi Dövlət Sularda Xilasetmə Xidmətinin Qəbələ Sularda Xilasetmə məntəqəsi ilə birlikdə Nohurqışlaq kənd tam orta məktəbində «Su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi» mövzusunda təbliğat xarakterli maarifləndirmə tədbiri keçirmişdir. Tədbirə kənd İnzibati Ərazi Nümayəndəliyi, Bələdiyyə üzvləri, Nohur gölü ətrafında fəaliyyət göstərən istirahət obyektlərinin sahibkarları və məktəbin yuxarı sinif şagirdləri cəlb olunmuşdur.

Tədbirdə Regional Mərkəzin əməkdaşları tərəfindən baş verə biləcək hadisələrin qarşısının alınmasında təbliğatın rolu, yay çimərlik mövsümündə insanların istirahətinin xoş ovqatla və təhlükəsiz keçməsi, su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi, xilasetmə əməliyyatlarının həyata keçirilməsi, ümumi təhlükəsizlik qaydaları, su obyektlərində istifadə olunan istirahət və idman qurğularında texniki təhlükəsizlik qaydaları, «112» qaynar telefon xətti barədə məlumat, «112» qaynar telefon xəttinə hansı hallarda müraciət etmək olar, hadisələr zamanı xilasedicilər gələnə qədər insanların vəzifələri və sair mövzularda ətraflı məlumatlar verilmiş, su hövzələrində təhlükəsizlik qaydaları ilə bağlı videoçarx nümayiş olunmuşdur.

Sonra kənd bələdiyyə sədri Nizami İbrahimov, məktəbin direktoru Yaqub Tahirov, RİH-nin məsul işçisi Tahir Hacıyev, Qəbələ Sularda Xilasetmə Məntəqəsinin rəisi Atamoğlan Abışov çıxış edərək sözü gedən ərazidəki vəziyyət barədə, gündəlikdəki məsələnin aktuallığı barədə çıxışlar etmişlər.

Tədbirin sonunda Sularda Xilasetmə Xidmətinin Qəbələ Sularda Xilasetmə Məntəqəsinin dalğıcları tərəfindən xilasetmə alət və avadanlıqları izahlı nümayiş olunmuş, suda boğulmalar zamanı zərərçəkmişə ilkin tibbi yardımın göstərilməsi barədə məlumatlar verilmişdir.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

## ELAN

DƏDRX-nin Qəbələ ərazi idarəsi tərəfindən Vəndam qəsəbə sakini Musayeva Namilə Mustafa qızının adına verilmiş 18.01.2012-ci il tarixli 124220000037 №-li arayış **itdiyi üçün** etibarsız sayılır.


## Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2013 -cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

Qəzet ayda dörd dəfə çıxır.

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.



*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi*
*M. Ə. Rəhimov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.